

**VAQİF YUSİFLİ,**
**filologiya elmləri doktoru**

# ƏLİ VAHİD ÇAYLININ "KÖNÜL NƏĞMƏLƏRİ"

**Əli Vahid Çaylı neçə illərdir şeir yazır, neçə illərdir öz şeir kitabları ilə onu tanıyan və sevən oxucularının görüşünə gəlir. "Maarif" nəşriyyatının keçən il çap etdiyi "Könül nəğmələri" onun hələlik son kitabıdır. Kitaba tanınmış folklorşünas Elxan Məmmədli ön söz yazıb.Elxan müəllimi cəlb edən heç şübhəsiz, Əli Vahid Çaylının qoşmaları, gəraylıları, rübailəri və bayatıları olub.**

Azərbaycan şeirinin ən qədim formaları heç vaxt öz poetik dəyərini itirmir. Nə qoşma, nə gəraylı, nə də bayatı. Əsrlərdir şairlərimiz bu formalarda -şeir şəkillərində gözəl nümunələr yaratmağa can atırlar. Biz Qurbaninin, Tufarqanlının, Aşıq Ələsgərin, Dədə Şəmşirin, həmçinin XX əsrdə yaşayan şairlərimizin -M.Müşfiqin, S.Vurğunun, S.Rüstəmin, B.Vahabzadənin,H.Arifin, N.Xəzrinin, Qabilin, M.Günərin, H.Kürdoğlunun, M.Aslanın, M.İsmayılın, M.Yaqubun, Z.Yaqubunqoşma və gəraylılarını sevə-sevə oxumuşuq, dinləmişik. O qoşma və gəraylılardan vətənpərvərlik, həyat eşqi, sevgi, əql və mərifət dərslərini mənimsəmişik. Əli Vahid Çaylı da şeirimizin qoşma, gəraylı ənənələrinə üz tutur, ustad şairlərdən öyrənir və çalışır ki, "köhnə havalar"da təzə söz deyə bilsin. Əli Vahid Çaylının qoşmaları klassik aşıqlarımızın ustadnamələrini xatırladır.

**Bu namərd dünyada mərd tək yaşayıb**
**Şərəfsiz düşməndən öc almalıyam.**
**Salıb ayaq altda şəri, böhtanı**
**Halaldan, doğrudan güc almalıyam.**

**Çəkib zəhmətini çörəyin, duzun,**
**Alovlu qəlbindən ilham al özün.**
**Tutub ətəyindən on dörd məsumun,**
**Haqqın dərgahına ucalmalıyam.**

**Vahid, dərd əlində qaldıqca başım,**
**Mənə laylay çalır torpağım, daşım,**
**Gəlib yetişibdi altmışa yaşım,**
**Mən ədəb-ərkanla qocalmalıyam.**

Bu qoşmada ustadlardan gələn bir nəfəs var.

Əli Vahid Çaylı onu düşündürən, narahat edən. eyni zamanda, sevindirən, qəmləndirən məsələlərdən söz açır. Şair ömrü çox narahat bir ömürdür, o, heç vaxt çevrəsində baş verən hadisələrə, olaylara biganə qala bilməz.

Onun etirazları da, şikayətləri də, sevinci də, qəmi də , özündən və fələkdən narazılığı da təbiidir.

Bir şeirdə həyatdan, yaşadığı mühitdən şikayət eşidiriksə, başqa bir şeirində dostluqdan, səmimi insan münasibətlərindən, digər şeirində Vətən məhbbətindən söz aça bilər. Sevgidən də, təbiətin gözəlliklərindən də, doğulduğu, boya-başa çatdığı kənddən, doğulduğu ocaqdan da şeirlərin yaranması təbiidir.

Amma bütün bu çoxsaylı mövzuların içində şair gərək öz varlığını itirməyə, onun dediyi sözlər səni də düşündürə.

**Bir ömür yaşayır insan dünyada,**
**Bu ömürdə min bir dərdi çəkən mən.**
**Sevinc əkib, şadlıq dərir dostlarım,**
**Dərd toxumun becərən mən, əkən mən.**

Bu, bir ömrün acılı günlərin təəssüratıdır.

**Ay ellər, istərəm Vətən yolunda**
**Ayımdan, günümdən, anımdan keçim.**
**Ömrün sonunadək hey qazandığım,**
**Bütün şöhrətimdən, şanımdan keçim.**

Bu isə vətənpərvərlik duyğusundan yaranan anddır, etiqaddır.

**Dar cığırlar yamaclarda iz tutar,**
**Eyhamından arif olan söz tutar,**
**Babamızın ruhu bizi tez tutar,**
**Çaylılar, qoymayın el köçə kənddən.**

Bu isə şairin öz həmkəndlilərinə çağırışıdır. Kəndlərdə əhali sayı azalır, bir çoxları rahatlığı, xoş güzəranı şəhərlərdə axtarırlar, halbuki, kənddə, torpaq üstündə, təbiətin qoynunda da gözəl həyat yaşamaq olar.



Əli Vahid Çaylının gəraylıları da xoş təsir bağışlayır. Zahirən, qoşma ilə gəraylı arasında bir elə fərq görünmür, q fərq ondadır ki, qoşmada hecaların sayı 11, gəraylıda isə 8-dir. Amma hər şeir formasının özəllikləri var. Gəraylıda fikir, aşılanan məzmun daha yüyrək, dinamikdir. Aşıq Abbas Tufarqanlı, Aşəq Ələsgər bu formanın ən gözəl nümunələrini yaratmışlar. Bizim zəmanədə isə Ramiz Rövşən gəraylıya üeni təfəkkür tərzi gətirdi. Əli Vahid Çaylı da maraqlı, oxunulası gəraylıların müəllifidir.

**Zirvədən hellənib gələn**
**Dağın daşdan nə xəbəri?**
**Qəfil müsibətə düşən**
**Gözün yaşdan nə xəbəri?**

**Başım qalda, qəlbim viran,**
**Gavan ikən oldum piran.**
**Apreldə şaxta vurduran**
**Yazın qışlan nə xəbəri?**

**Çobandır sürüyə hayan,**
**Otarıb yamacda yayan.**
**Qoyunu qurda paylayan**
**Alabaşdan nə xəbəri?**

Deyə bilərik ki, bu gəraylıda klassik ənənədən gələn nəfəs var və arzu edirik ki, Əli Vahid Çaylı həmişə belə yaxşı gəraylılar yazsın və "Könül nəğmələri"ndə beləlləri az deyil. Bir neçə kəlmə də onun bayatıları haqqında. Elxan Məmmədli haqlı olaraq yazır ki: "Əli Vahidin bayatılarını xalq bayatılarından seçmək çox çətindi. Bu bayatılar bədii cəhətdən kamildi. Az sözlə fikir ifadə eləmək ənənənsi burda da özünü göstərir".

**Əzizinəm, yan durar,**
**Papaq başda yan durar.**
**Haqdan nuru sönənin**
**Çırağın kim yandırar.**

**Ulduz gəlib ay olmaz,**
**Dəniz dönüb çay olmaz.**
**Yüzlərlə aşıq gələ,**
**Ələsgərə tay olmaz.**

"Könül nəğmələri"ndə yaxşı şeirlər az deyil. Bununla yanaşı, bəzi şeirlərdə nöqsanlar da nəzərə çarpır, məzmun,fikir dolaşıqlığı diqqətdən yayınsır.

Amma sözüymüzü qısa eyləyək. Mərhum deməyə dilim gəlmədiyi Oqtay Rzanın Əli Vahid Çaylıya həsr elədiyi bir şeirin bu bir bəndi ilə sözümüzü bitirək:

**Xeyirxah, səmimidir,**
**Daş ürəyi mum edir.**
**Sözü məlhəm kimidir**
**Əli Vahid Çaylının.**